# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 341** **Bakı şəhəri, 5 noyabr 2021-ci il**

***"Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında", "Arıçılıq haqqında", "Penitensiar müəssisə-lərdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Təhsil haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azər-baycan Respublikasının 2021-ci il 4 may tarixli 311-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 fevral tarixli 32 nömrəli, "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 18 iyul tarixli 263 nömrəli, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli 274 nömrəli, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 3 iyul tarixli 606 nömrəli, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 147 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respub-likası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2011-ci il 15 fevral tarixli 382 nömrəli, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" 2011-ci il 20 aprel tarixli 414 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1356 nömrəli Fərmanının 10-cu hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725; 2017, № 2, maddə 325; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 495; 2021, № 6 (IV kitab), maddə 667) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı"nın 5.1.1-ci yarımbəndində və 6.1-ci bəndində "səhiyyə idarə və" sözləri "tibb" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***